**Ədibə Paşayeva ADU-dan (indiki BDU) məzun olduqdan sonra əmək fəaliyyətinə elə həmin universitetdə başlayıb. 1969-cu ildən 1979-cu ilə qədər ADU-nun rus ədəbiyyatı kafedrasında müəllim, 1979-cu ildən baş müəllim, 1988-ci ildən xarici tələbələr üçün rus dili kafedrasının müdiri işləyib. 2004-2019-cu illərdə BDU-nun Humanitar fakültələr üzrə rus dili kafedrasının müdiri olub. Hazırda BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifəsində çalışır.**

**Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adı, "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı, "Tərəqqi" medalı və 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşdur.**

# Mahir pedaqoq, istedadlı alim, örnək insan



İnsan da, təbiət də uca Yaradanın bu dünyaya bəxş etdiyi möhtəşəm, əzəmətli və min bir çalarlı əsəridir. Ən ümdəsi də odur ki, yaxşıların yaxşısı olan insan öz zəkası, duyarlılığı və yaradıcı xüsusiyyəti ilə dünyaya yaraşıq verir. Vüqarını əqidəsinə çevirən və duruşunda sərgiləyən də, günəşə bənzərliyi ilə buz bağlayan qəlbləri isidən də, zülmətdə işıq axtaranları aydınlığa yönəldən də, mayası halallıqdan yoğrulan qənimət kimi tanıdığımız insan deyilmi?!

Atalarımız deyiblər ki, yaxşılara görə bərqərardı bu dünya, elə o yaxşıların hesabına gözəldir həyat. Qənimət kimi tanıdığımız yaxşılara hərəmiz öz baxış bucağımızdan yanaşsaq da, nəticə etibarı ilə qənaətimiz eyni məna kəsb edir və bu mənadan yetərincə pay düşür dünyaya da, insanlara da, təbiətə də. Elə bu səbəbdən kiçik dünyamızda, həyat adlı aydın aynada görə bilib, qiymət vermək istədiyimiz, örnək aldığımız, ömrümüzə yaraşıq olan əsl insanlardan, onların təbiətindən söz açırıq...

Ürəyimizdə önəmli yeri olan, həyatımızı nurlandıran, könül evimizdə silinməyən iz qoyan seçilmişlərdən söz açmaq qürurvericidir. Həyat bizi ömrümüzün bəzəyi, fəxri olanların, ona rəng qatanların dəyərini bilməyə səsləyir. Beləcə, yuxarıda sadaladığım xüsusiyyətlərə malik insanlardan olan professor Ədibə xanım Paşayeva haqqında qəlbimdəki düşüncələrimi yazıya çevirərək ona ünvanlayıram.

Ədibə xanımı tanıdığım ilk gündən özümə ideal bildim. Bir insanda cəmləşən, saymaqla-sadalamaqla bitməyən, ana təbiətin gözəlliyini və özəlliyini dəyişilməyən tərzdə öz davranışlarında, ətrafındakılara səmimi münasibətində təcəssüm etdirən, sözün əsl mənasında örnək insandan söz açmaq həm də məsuliyyətdir. Ədibə xanım kimi yüksək intellektli, təvazökarlığın zirvəsini fəth etmiş, xarakterində bənzərsiz yumora malik, çoxlarına bəlkə də özü hiss etmədən, hərtərəfli nümunə olmaq bacarığına sahib pedaqoq alimdən söz açmağın nə qədər gərəkli olduğunu hər kəs anlayar. Valideynlərimizin tövsiyələrini uşaq yaşlarından ağlımıza həkk edib, davranışımızda mayak kimi görürüksə, ağlımız kəsəndən sonra, ədəb-ərkan simvolu hesab etdiyimiz sevgisi ümman, mövqeyi məlum, hərtərəfli ləyaqətli və alicənab insanları da son günümüzə qədər örnək bilməliyik. Dünya başdan-başa gör-götür dünyasıdır, insanlığın təbliği hamımız üçün gərəkdir, zəruridir. Yaxşılığın, təmənnasızlığın, gözükönlü tox olmanın əzəli var, sonu yox...

Ədibə xanımı 40 ildən artıqdır ki, yaxından tanıyır, sanıram ki, bu yaxınlıq taleyin xoş qismətidir mənim üçün. Böyük ziyalı, nurlu şəxsiyyət, bacarıqlı təhsil təəssübkeşi, cəfakeş müəllim, böyük ürəkli etibarlı dost, fədakar ana, soykökünə bağlı şərəfli övladın ömür yoluna dastanlar yazılası qədər böyük qadındır Ədibə xanım.

Professor Ədibə xanım Paşayeva ətrafında olanlara, həmkarlarına, tələbələrinə, insanlığın bəzəyi olan sadəliyi və təmkinliyi ilə, dönə-dönə oxunan, hər dəfə heyran qalınan və bağlanmayan kitaba bənzəyir. Sözün əsl mənasında cəmiyyətdə örnək insan deyilir belələrinə. Sonsuz sevgilərin ünvanı hesab edirəm əzizimiz Ədibə xanımı.

Onu da qeyd etməliyəm ki, özü dəyərli olduğu üçün dəyər verməyə də qadirdir Ədibə xanım. Hərtərəfli, mükəmməl insanlar Tanrı tərəfindən seçilmişlərdən sayılırlar. Həyat kredosuna xeyirxahlıq möhürü vurulan, yüksək insani kriteriyaları qanına hopmuş, mərhəmətliliyin nümunəsidir Ədibə xanım. "Ot öz kökü üstə bitər" atalar sözü tamlıqla Ədibə xanımın boyuna biçilmişdir desəm, fikrimi daha aydın ifadə etmiş olaram. Kökdən gələn, qanda olan sadəlik, əlçatanlıq, paklıq və mərhəmətlilik Ədibə xanımı tanıyan hər kəsə gün kimi aydındır. Sonsuz məhəbbətə layiq olan professor Ədibə xanım Mir Cəlal qızı Paşayeva çoxlarında olmayan yaxşıda yaxşını görmək qabiliyyətinə sahibdir. Onunla təmasda olan insanlar Ədibə xanımın istiqanlılığı özünün həyat tərzi hesab etdiyini görüb, bilirlər və bu dövrdə az-az görünən, xüsusiyyətlərin dəyişkənliyə məruz qaldığı bir vaxtda, hər birimizin həyatına məlhəm toxunuşu ilə yol göstərənimizə çevrilən güvən yerimizdir. İbrətamiz məsləhətləri, az sözlə çox mətləblərə aydınlıq gətirmək qabiliyyəti, lazım gəldiyi anda verdiyi təsəllisi qəlbimizin dərinliyinə yol açır.

Ədibə xanımın müəllim və alim kimi elmi səviyyəsi pedaqoji ustalığı ilə vəhdət təşkil edir. O, elmə verdiyi əvəzsiz töhfələri, böyük təəssübkeşliyi ilə müəllimliyin ən uca zirvəsini fəth edən, kamil insanlıq dastanının qəhrəmanına çevrilən böyük şəxsiyyətdir ki, bir məqaləyə gördüklərimin, bildiklərimin, düşündüklərimin hamısını sığdırmaq mümkün deyil. Tək onu deyə bilərəm ki, Ədibə xanımın tövsiyələrinə əməl etmək, onu dinləmək, onunla birlikdə çalışmaq şəxsən mənim üçün və əminəm ki, həmkarlarım üçün də böyük xoşbəxtlikdir.



Əzizimiz, doğmamız, mahir pedaqoq, istedadlı alim, nüfuzlu ziyalı, milli-mənəvi dəyərlərin təbliğində gənc nəslə örnək olub, bütün bunların onlara ötürülməsində şərəfli əməyini əsirgəməyən Ədibə xanım Paşayevanı doğum günü münasibətilə ürəkdən, can-könüldən təbrik edir və uzun, mənalı ömür diləyirik.

**Sona ÇƏRKƏZ,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü,**
**BDU-nun 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının "Yubiley" medalı, "Qızıl qələm" media mükafatçısı.**